**UOT 336**

# AUDİTİN FORMALAŞMASININ ELMİ-NƏZƏRİ ƏSASLARI VƏ ƏHƏMİYYƏTİ

**Əli HÜSEYNOV***

Məqalə redaksiyaya daxil olmuşdur: 19 sentyabr 2022; çapa qəbul edilmişdir: 27 oktyabr 2022; online-da çap edilmişdir: 30 dekabr 2022

Received: 19th of September, 2022; accepted: 27th of October, 2022; published online: 30th of December, 2022

**Açar sözlər:** *audit mərhələləri, auditin planlaşdırılması, auditin yaranması, auditin əhəmiyyəti, auditin növləri*

## Giriş

"Audit" sözü latın dilindən götürülmüşdür və "audio" sözündən əmələ gəlib, mənası isə dilimizdə "eşitmək" kimi tərcümə olunur. Alimlər belə fərz edirlər ki, bu sahə pul və pul münasibətləri yarandığı dövrdən mövcudluğunu davam etdirir. Auditin inkişaf tarixinə nəzər salsaq, bu terminin əsaslarının qoyuluşu b.e.ə 4000-ci ildə yaranmış qədim Şərq ölkələrinə təsadüf edir. Bu ölkələrə qədim sivilizasiya mərkəzləri olan, Yunanıstan, Çin və Misiri misal kimi göstərə bilərik. Həmin dövrlərdə auditin ilkin mərhələlərinin meydana gəlməsi Aristotelin öz sitatlarında da əksini tapmışdır. Auditin əsas yaranma mahiyyəti hesablamalarda baş verən səhvlər, məlumatların düzgün tərtib edilməməsi, yaranan fırıldaqçılıq hallarının aradan qaldırılması idi. Sahibkarlar müəssisələrinin maliyyə hesabatları haqqında daha düzgün məlumatlar əldə etməkdə maraqlı idilər. Bu da audit kimi peşə sahəsinin meydana gəlməsinə gətitib çıxardı. Qədim Afinada dövlət büdcəsinə nəzarət prosesini, əksəriyyətini auditorlar təşkil edən xalq yığıncaqlarının maliyyə orqanları edirdi. Auditorlar öz fəaliyyətlərini xəzinədarların tabeliyi altında həyata keçirirdilər. Romalılar isə bu dövrdə mühasibat sənədlərinin hazırlanması sistemini qurmuşdular və bununla bağlı fəaliyyət göstərə bilirdilər. Bu fəaliyyətlə məşğul olan işçilərə "kvestors" deyilirdi və onlar hazırladıqları hesabatları Romaya təqdim etməli idilər. Auditə dair ilk yoxlanışların aparılması hazırkı Çində eramızdan əvvəl 1045-221-ci illərə aid edilir. O vaxtlar çinlilər bütün ölkə ərazisində maliyyə sistemini qurmağı bacarmışdılar. Bir fəaliyyət sahəsi kimi auditdən istifadə edilməsinə İngiltərədə IX əsrdə Vilhelmin təşəbbüsü ilə başlanmışdır [3, s. 5].

## Auditin inkişaf mərhələləri

Ümumiyyətlə, audit sahəsi qədim zamanlardan günümüzədək bir çox inkişaf mərhələsindən keçmişdir.

Audit bir sahə kimi öz inkişafında aşağıdakı mərhələləri əhatə edir:

• İlk mərhələ (XIII-XIV əsrlər): davamlı nəzarəti təmin etmək məqsədi ilə dövlət tərəfindən keçirilən yoxlamalar;

• 2-ci mərhələ (XIV-XIX əsrlər): təkmilləşdirilmə və inkişafı mərhələsi. Bu

* *magistrant, Bakı Avrasiya Universiteti*
e-mail: huseynovali905@gmail.com

mərhələdə artıq nəzarətlə yanaşı digər xidmətlərdə əlavə olundu;

• 3-cü mərhələ (XIX əsrin ikinci yarısı-XX əsrin əvvəlləri): məcburi olmasına dair təsəvvürlərin formalaşması;

• 4-cü mərhələ (XX əsrin sonları): müəssisələrdə daxili nəzarətin inkişafına aid tədbirlər;

• 5-ci mərhələ: auditin aparılmasında avtomatlaşdırmanın inkişafı [4, s. 3].

Respublikamızda auditin meydana gəlməsi birbaşa olaraq, dövlət müstəqilliyinin əldə olunması və bazar münasibətlərinə keçidlə əlaqəlidir. Keçmiş SSRİ-nin zamanında ölkəmizdə maliyyə xidmətləri üzərində aparılan iqtisadi nəzarətlər inzibati-amirliyin qoyduğu tələblərlə həyata keçirilirdi. Buna görə də, Azərbaycanda audit sahəsi hələ mövcud deyildi. Bu zaman keçirilən iqtisadi nəzarətləri nazirliklərin qoyduğu qaydalar çərçivəsində təftiş orqanları aparırdılar. SSRİ dağıldıqdan sonra respublikamızda audit haqqında qəbul olunan qərarların xronoloji ardıcıllığı aşağıdakı kimidir

• Azərbaycan respublikası nazirlər kabinetində auditor fəaliyyəti ilə bağlı 1991-ci il iyulun 31-də "Təsərrüfat hesablı auditor mərkəzi"nin qurulması barədə qərar qəbul edildi;

• Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə 1992-ci ilin mart ayının 27-də Maliyyə Nazirliyində Lisenziya Komissiyası yaradıldı;

• 1994-ci il 16 sentyabr "Auditor xidməti haqqında" qanunun qəbul edilməsi və bundan sonra, 1995-ci il 20 iyulda bu qanunun qüvvəyə minməsi ilə bağlı qərarın qəbulu;

• 1995-ci il sentyabrın 19-u "Azərbaycan Respublikasının Auditorlar Palatası" haqqında əsasnamə və 1996-cı il 12 mart tarixli qərara əsasən bu qərarda bəzi dəyişikliklərin aparılması [5; 3, s. 9].

Bu mərhələlər əsnasında müəssisə sahiblərinin maraqlarında baş verən dəyişikliklər audit prosedurlarında da, dəyişmələrə yol açır, audit xidmətləri ilə yanaşı digər xidmətlərində göstərilməsinə, yeni audit növlərinin yaranmasına ehtiyac yaradırdı. Latviya respublikasının dövlət nəzarəti sferasında əldə etdiyi məlumatlar nəticəsində öyrənilmişdir ki, dövlət auditi demək olar dünyanın hər ölkəsində tətbiq edilir və son dövrlərdə dinamik olaraq inkişaf etməsi ilə diqqət çəkir. Dövlət auditinin əsas məqsədi büdcə vəsaitlərinə nəzarət, onlardan səmərəli istifadənin təşkili və resursların qanuni formada istifadəsini qiymətləndirməkdir. Hazırkı şəraitdə elektronlaşmış biznes əməliyyatları və sahibkarların öz bizneslərini genişləndirməsi onların müəssisə üzərindəki nəzarətlərini qismən əldən buraxmalarına səbəb olur. Belə hadisə baş verən zaman müəssisənin idarəetməsində iştirak edən işçilərin öz vəzifələrindən sui-istifadə edərək, dələduzluq əməllərini törətmələri qaçınılmaz hal alır. Günümüzdə bu kimi halların qarşısının alınması üçün sahibkar subyektlər audit yoxlanışına və xidmətlərinə ehtiyac duyur. Müasir ictimaiyyətdə beynəlxalq auditin müəssisələr üzərində nəzarətinin tənzimlənməsində bir çox növlərindən istifadə olunur. Şirkətlər tərəfindən istifadə olunan audit növlərinə aşağıda göstərilənləri aid edə bilərik [7]:

**Audit növləri**

***Daxili audit.*** Adından görüldüyü kimi bu audit müəssisənin daxili performansını müəyyən etmək məqsədi ilə reallaşdırılır. Daxili auditin aparılması daxili və ya xarici şəxslərin təşəbbüsü ilə baş tuta bilər. Bu auditin mahiyyəti daxili funksiyaların düzgün şəkildə işləməsinə nəzarət etməkdir. Müəssisədə xüsusi yoxlanış, saxtakarlıq və əməliyyatlara baxışların keçirilməsi daxili auditin əhatə etdiyi bir neçə xidmətdir. Daxili auditin hazırlanmış hesabatında ümumi olaraq, bunlar haqqında rəy, aşkara çıxarılmış nəticələrin siyahısı və müəssisənin fəaliyyətinə göstərdiyi təsir əks olunur. Hazırlanan hesabatın sonunda isə, müəssisənin səmərəli fəaliyyəti üçün auditor tövsiyələri verilir. Tövsiyələrə əsasən rəhbər təsdiq verərsə, qarşı tədbirlərə başlanıla bilər.

***Xarici audit.*** Ən geniş yayılmış audit növlərindən biridir. Əsas məqsəd şirkətin mü-

hasibat balansı və maliyyə hesabatlarının düzgün formada işlənib hazırlanmasının yoxlanmasını nəzərdə tutur. Xarici audit sərbəst auditor tərəfindən, müəssisə sahibi ilə bağlanan müqaviləyə əsasən həyata keçirilir. Müəssisələrin çoxu neytral qalmaq məqsədi ilə üçüncü tərəf firmaların sayəsində xarici auditlər aparırlar. Firmalar audit standartlarını ciddi şəkildə tətbiq edirlər. Xarici audit və daxili audit nə qədər fərqli olsa da, bu iki proses bir-birini tamamlayır.

***Məhkəmə auditi (ekspertizası).*** Məhkəmə ekspertizası sahibkar subyektinin maliyyə hesabatının məhkəmədə məhkəmə icraatı üçün istifadəsi məqbul görülən sübutları aşkarlamaq məqsədilə istintaq yolu vasitəsilə strukturlaşdırılmış tədqiqidir. Bu audit növü daxili auditdən daha öndə hesab edilir və bu auditi icra edən auditor peşəsi üzrə peşəkar fəaliyyət göstərməli, mühasibat uçotu sahəsini və qanunvericilik bazalarını yaxşı bilməlidir. [7]

***Qanuni audit.*** Hakimiyyət orqanları tərəfindən müəyyən müəssisələr üçün maliyyə hesabatlarının yoxlanmasının qanunla tələb olunmuş audit növüdür. Qanuni auditin aparılması yuxarı orqanların təsdiqindən sonra baş tutur.

***Vergi auditi.*** Vergi auditini dövlətin vergi orqanı və ya vergi idarəsi apara bilər. Bu audit müəyyən bir şəxsin və ya dövlət qurumunun şikayətinə əsasən aparılır. Yoxlamanı təşkilat təşkil etdiyindən onlar vergi orqanları ilə əlaqə yaratmağı ehtiyac bilmirlər və əldə edilən nəticələr birbaşa olaraq hökumətə təqdim edilir.

***İT auditi.*** Auditin məqsədi təhlükəsizlik sistemlərinin yoxlanmasını nəzərdə tutur. Aparılan əməliyyatların çoxu informasiya texnologiyalarından istifadə edilməsi ilə reallaşdırılır. Bu auditin təşkili yüksək məbləğdə pul köçürülməsi edilən bankomatlarda daxil olmaqla, internet bankçılığına kimi bütün maliyyə təşkilatları üçün əhəmiyyətlidir.

***Ətraf mühitlə bağlı audit.*** Məqsəd böyük həcmli korporasiyaların ətraf mühitə nə qədər ziyan vurduğunu, çirkləndirdiyini öyrənməkdir.

***Uyğunluq auditi.*** Müəssisədə daxili əməliyyatların və prosedurların qəbul edilmiş qaydalara uyğun olub-olmamasını yoxlamaq üçün nəzərdə tutulan audit növüdür. Uyğunluq auditinin mahiyyəti daxili siyasətin hökumət tərəfindən qoyulan standartlara uyğunluğunu yoxlamaqdır.

***Maliyyə auditi.*** Vacib sayılan audit növlərindən biridir. Maliyyə hesabatlarında əks olunmuş informasiyaların düzgünlüyünü yoxlayır. Bu audit istənilən audit firması tərəfindən aparıla bilər. Yoxlama aparan firmanın təşkilatla heç bir əlaqəsi olmamalıdır.

***Əməliyyat auditi.*** Həyata keçirilən proseslərin məqsədinin və onlardan əldə olunan nəticələrinin ətraflı şəkildə öyrənilməsi əməliyyat auditi adlanır. Bu audit daxili yada kənar auditor tərəfindən aparıla bilər. Audit həyata keçirilərkən məqsəd şirkət səmərəliyinin artırılması yönündə olmalıdır. Sonda hazırlanmış hesabatda şirkət üçün səmərəliliyin artırılması dair tövsiyələr verilir.

Qeyd edilən audit növlərinin bəziləri respublikamızda müəssisələr üzərində audit yoxlamalarının aparılması zamanı istifadə olunur. Yerli audit təşkilatları tərəfindən aparılan audit növlərinə: Könüllü və məcburi audit, daxili və xarici audit, təsərrüfat fəaliyyətinin auditi, əməliyyat auditi, uyğunluq auditi, xüsusi audit, maliyyə hesabatının auditi, dövlət orqanlarının tapşırığına əsasən məcburi audit və digər audit növləri aiddir.

**Müəssisələrdə auditin aparılmasının əsas üstünlükləri və mənfi cəhətləri**

Müəssisələrdə auditin aparılmasının ən əsas üstünlüklərindən biri sahibkarlara və investorlara verdiyi təminatdır. Bunun sayəsində biznеslə məşğul olanlar öz mühasibat sənədlərinin etibarlılığına əmin olur, İnvestorlar isə, müəssisə səhmlərini alarkən daha rahat qərar qəbul edə bilirlər. Bir başqa üstünlüyü də, baş vermiş səhvlərin, fırıldaqçılıq əməllərinin aradan qaldırılmasıdır. Müəssisədə yaranan səhvlər qəsdən törədilməyən ha-

disələrdir. Amma fırıldaqçılıq əməlləri bilərəkdən reallaşdırılır. Audit səhvlərin və dələduzluqların qarşısını alır. Bu da, aşkarlanma qorxusu yaradır. Beləliklə, audit mühasibat hesabatlarındakı səhvləri və saxtakarlıqları minimum dərəcədə etdirməyi bacarır. Amma bunları hər zaman tamamilə aradan qaldırmaq mümkün deyil. Səhvlər elə ola bilər ki, gözlərdən yayınsın və fırıldaqçılıq halları ağıllı bir şəkildə gizlədilə bilər. Buna görə də belə halların aşkarlanmama ehtimalınıda gözə almaq lazımdır. Müəssisədə işləyənlər nə vaxtsa hesabların yoxlanacaqlarını bildikləri üçün öz fəaliyyətlərinə daha ciddi formada yanaşırlar. Bunu da öz növbəsində müəssisələrdə auditin aparılmasının digər üstünlüyü kimi qəbul etmək olar. Audit yoxlanışlarının müəssisələrin fəaliyyətində nə qədər üstün cəhətləri olsa da, mənfi təsirlərdə göstərə bilər.

Aşağıdakıları auditin mənfi cəhətləri olaraq göstərmək olar:

• Xərc amili – Təfərrüatlı formada aparılan audit daha çox xərc tələb edir. Bu da, orta seqment bir müəssisə üçün elədə sərfəli deyil. Beləliklə, auditor apardığı audit yoxlanışının əhatə dairəsini məhdudlaşdırmağa məcbur qalır.

• Zaman amili – Auditorların iş prinsipi xüsusi vaxt qrafikinə uyğun formada aparılır. Bu əsasən qanunda göstərilən tələblərlə əlaqədar olur. Auditin verilmiş müddət ərzində aparılması və hesabatların çox olması auditorun öz işlərini vaxtında çatdıra bilməməsinə səbəb ola bilər.

• Nəticəsi olmayan sübut – Auditorlar tərəfindən toplanılan sübutlar qəti xarakter daşımırlar. Buna görə də audit aparılması zamanı tamamilə sübut olunma dəyə bir şey yoxdur. Bu xüsusiyyət auditin əsas məhdud cəhətlərindən hesab edilir. Mühasibat uçotu sahəsində ehtimallardan çox istifadə olunur. Auditor həmin ehtimallar barədə rəy bildirərkən, öz biliyinə güvənməlidir [6].

Müəssisələrdə audit xidmətlərinin daha uğurlu aparılması üçün, əvvəlcədən planlaşdırmaların hazırlanması vacibdir. Planlaşdırma auditin vacib komponenti hesab edilir. Bu komponentlərə aşağıdakıları misal göstərmək olar:

• Verilən tapşırığın icra olunacağı iş sahəsinin həcmini bilmək. Tapşırıq üzrə fəaliyyətə müştəri ofislərinin, planlaşdırmanın qarşısındakı məqsədlər, maliyyə hesabatlarının vacib istifadəçilərinin müəyyən edilməsi aiddir.

• Müəyyən olunanlara aşağıdakılar aid edilir:

- Audit strategiyasının tapşırıq sahəsinin həcminin nəzərə alınması ilə müəyyən edilməsi;
- Müəssisənin hazırkı biznes mühiti və tənzimləyici sahəsi;
- Əsas kimi daxili auditorun fəaliyyətinin götürülməsi və şirkət üçün digər səciyyəvi məsələlər;
- Auditin müddəti, əlaqə növü, məqsədlər;
- İdarə edilmədə meydana gəlmiş əngəllər, auditin aparılmasının müəssisə üçün vacibliyi, fırıldaqçılıq halları, risklər və daxili nəzarətə ilkin baxışların keçirilməsi;

• Yuxarıda qeyd olunanlarla əlaqədar audit risklərini məqbul səviyyədə endirə bilmək məqsədilə auditin müddətini, həcmini, icra olunacaq prosedurların xüsusiyyətlərini, aparılan testlərin növünü audit proqramına əsaslanaraq, audit planının hazırlanması;

• Auditi gerçəkləşdirmək üçün lazım olan resursları aydınlaşdırmaq [1, s. 9].

**Nəticə**

Bütün bu qeyd olunan məlumatlara əsaslanaraq deyə bilərik ki, müəssisələrdə auditin dövlət səviyyəsində ya da sahibkar subyektin şəxsi istəyinə bağlı olaraq aparılmasını cəzalandırma prosesi kimi adlandırmaq o qədər də, düzgün olmazdı. Bunu daha çox dövlət səviyyəsində edilən xəbərdarlıq, rəhbər tərəfindən şirkətin səmərəliliyinin artırılmasına yönəlmiş tədbir kimi başa düşmək olar.

## ƏDƏBİYYAT

1. Auditin aparılması və sənədləşdirilməsinə dair təlimat. Bakı, 2015, 410 səh. (https//audit.gov.az/uploads/Shura_297_7_elave pdf)
2. Auditin əhəmiyyəti mahiyyəti və təşkili (https://muhasibat.wordpress.com/)
3. Babaşirinova E.M. Audit fənni üzrə mühazirələr Bakı, 2016, 219 s. (https://624blog.files.wordpress.com/2016/09/audit.pdf)
4. Голиков О.И., Голикова О.В. Этапы развития управленческого контроля и аудита (https://cyberleninka.ru/article/n/etapy-razvitiya-upravlencheskogo-kontrolya-i-audita)
5. Auditing: Advantages of Auditing and Limitations of Auditing (toppr.com)
6. 13 Types of Audit - Various types of Auditing used By Companies (marketing91.com)

Forensic Audit - Meaning, Reasons, Steps, How it Works? (wallstreetmojo.com).

***Summary***

***Ali Huseynov***

***Scientıfic-Theoretical Basıs and Significance of Audit Activity***

From the beginning of market relations, entrepreneurs were interested in receiving detailed and accurate information about their business. The reports presented by the accountants did not fully satisfy the entrepreneurs. Suspicious circumstances within the company required an outside opinion on the prepared reports. All this contributed to the development of the field of audit in enterprises. Today, the audit, which ensures the regulation of state control of enterprises, retains its importance in the control system. The services provided by the audit include many services, such as providing advice on improving the activities of organizations, providing future forecasts based on current and previous reports, and providing information to the entrepreneur about individuals who commit fraud for personal interests in management. As time progressed, the changes in the interests of business owners and the complexity of market relations necessitated the formation and emergence of new types of this field. In our country, large-scale measures are taken to strengthen state control over business entities. In our republic, the audit of enterprises is carried out in a voluntary-obligatory form. An audit in a voluntary form depends on the request of the entrepreneur, and the volume and size of the audit is carried out at the request of the client. A mandatory audit is carried out if necessary in accordance with the law. Insurance companies, commercial banks, commodity and stock exchanges and many similar enterprises are involved in mandatory audits every year.

The article provides detailed information about the emergence of audit in the world and in our country, its development stages from its inception to the present day, its importance and types in modern times, and the role of planning in the activities of enterprises is analyzed. The article shows the positive and negative sides of the audit.

**Keywords:** *audit stages, audit planning, audit occurrence, audit importance, audit types*

***Резюме***

***Али Гусейнов***

***Научно-теоретические основы и значение формирования аудита***

С самого начала рыночных отношений предприниматели были заинтересованы в получении подробной и достоверной информации о своем бизнесе. Представленные бухгалтерами отчеты не в полной мере удовлетворили предпринимателей. Подозрительные случаи внутри компании требовали стороннего заключения по подготовленным отчетам. Все это способствовало развитию сферы аудита на предприятиях.Сегодня аудит, обеспечивающий регламентацию государственного контроля за предприятиями, сохраняет свое значение в системе контроля. Услуги, предоставляемые аудитом, включают в себя множество услуг, таких как рекомендации по повышению эффективности организаций, предоставление прогнозов на будущее на основе текущих и предыдущих отчетов, предоставление информации предпринимателю о тех, кто совершает мошеннические действия в личных интересах в управлении. С течением времени изменение интересов предпринимателей и усложнение рыночных отношений обусловили необходимость формирования и появления новых видов этого

поля. В нашей стране реализуются масштабные меры в направлении усиления государственного контроля за хозяйствующими субъектами. В нашей республике аудит предприятий проводится в добровольно-обязательной форме.Аудит в добровольной форме зависит от запроса предпринимателя, а объем и размер аудита осуществляется по запросу клиента.Обязательно аудит проводится при необходимости в соответствии с законодательством. Страховые компании, коммерческие банки, товарные и фондовые биржи и многие подобные предприятия ежегодно проходят обязательные проверки.

В статье представлена подробная информация о возникновении аудита в мире и в нашей стране, этапах его развития от зарождения до наших дней, его значении и видах в современное время, а также проанализирована роль планирования в аудиторской деятельности. предприятия. В статье показаны положительные и отрицательные стороны аудита.

***Ключевые слова:*** *этапы аудита, планирование аудита, возникновение аудита, важность аудита, виды аудита*

Redaksiya heyətinin üzvü i.e.d., prof. Məmmədov Elşad Yaqub oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.